*Nurlana Baghirova Qhudreddin*

**The role of the Azerbaijan National Museum of Art in the protection and promotion of arts and crafts**

## SUMMARY

Thesis is dedicated to the comprehensive study of the problems of education and development of the Azerbaijan National Museum of Art, as well as the analysis of a collection of decorative art in the museum.

The thesis consists of an introduction, three chapters, eight sub-chapters , conclusions and bibliographic apparatus . In the introduction the relevance of the topic is determined by the degree of investigation of the problem , the aim and objectives set out scientific innovation , characterized by the major sources , the chronological framework and the practical significance of the work .

Chapter **I** - "The formation of museums in Azerbaijan and the formation of the Azerbaijan National Museum of Art " traces the main stages of development of the Azerbaijani museum , examines the formation and basic directions of activity of the Azerbaijan National Museum of Art .

Chapter **II** - "Collection of Azerbaijani arts and crafts of the Azerbaijan National Museum of Art " analyzes samples of pottery and metal art stored in the museum. Analysis are numerous instances of carpets, fabrics , embroidery , national costumes , as well as the museum's collection of samples of carving presented on wood, stone and bone.

Chapter **III** - "A collection of foreign arts and crafts of the Azerbaijan National Museum of Art " reveals the uniqueness of the collection of porcelain and art glass , textiles, metal art and furniture.

The Conclusion summarizes the main conclusions of the study .



## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Muzey ekspozisiyalarının təşkili, quruluşu, bədii tərtibatı, eyni zamanda onun qorunması, saxlanılması və təbliği problemi, bütövlükdə Azərbaycan muzeyşünaslıq elmində muzeyçilik fəaliyyətinin tədqiqi nisbətən az öyrənilmiş bir mövzudur. Son illərdə ölkəmizdə aparılan islahatlar muzeylər şəbəkəsinə də təsir göstərmişdi və burada əsaslı dəyişikliklər baş vermişdi. Milli status almış muzeylər yenidən tədqiqat mərkəzinə çevrilmişlər. Ona görə də bu mövzunun aktuallığını xeyli artırmışdır.

İnformasiyanın vacib mənbəyi olmaqla yanaşı, muzey kolleksiyaları və fondları, eyni zamanda, muzeydə elmi tədqiqat işinin, elmi təfəkkürünün formalaşmasına aktiv surətdə kömək edir. Muzey eksponatları zallarda nümayiş olunarkən, ekspozisiyanın yüksək ideya nəzəri məzmununu əks etdirir, bədii-estetik həllə təsir göstərir. Onlar elm və texnikanın yeni nailiyyətlərində öz əksini tapır.

«Muzey terminlərinin qısa lüğətində» «muzey» sözü muzey profilinə uyğunlaşmış muzey toplularını komplektləşdirən, qoruyan, tədqiq və nümayiş etdirən elmi-tədqiqat və elmi-maarif müəssisə kimi təqdim olunur. Bu da əsassız deyil, belə ki, muzeylər çox funksiyalıdırlar. Bilik mənbələrinin elmi dövriyyəyə salınmaq üçün tədqiq olunan və sənədləşdirilən, ölkənin əsas muzey fondunun hökumət xəzinəsi olan bu elmi-tədqiqat müəssisələri biliklərin yayılmasının əsas mənbəyi kimi ideoloji müəssisələr sisteminə daxildir.

Muzeyin fondlarında saxlanılan əşyalar tamaşaçıya yalnız ekspozisiyada və sərgilərdə nümayiş etdirilə bilər. Daimi ekspozisiyaların bədii-estetik həlli, onların qorunması, saxlanılması və təbliği problemi muzeyin məğzi ilə üzvü surətdə bağlıdır.

Muzeyin əsas funksiyalarından olan təhsil və tərbiyə funksiyası ilə bilik mənbəyi olan muzey əşyası arasında meydana gələn əlaqə yaradaraq, əsas kommunikasiya sistemi olan ekspozisiyalar vasitəsi ilə həyata keçirilir. Bu baxımdan Azərbaycanın Milli İncəsənət Muzeyinin fəaliyyəti diqqətə layiqdir.

Muzey ekspozisiyasına daxil olmamışdan əvvəl əşya tam qeydiyyat keçir, onunla başlı rəvayət, müəllifi, ili, adı, üslubu materialı araşdırılır; o baş inventar kitaba, elmi inventar kitaba salınır, onun şəkli çəkilir, elmi

kartoçkası doldurulur; bərpaçının müayinəsindən keçir və ondan sonra lazım olarsa ekspozisiya zalında nümayişə təqdim olunur və yaxud fond saxlanclarında öz yerini tutur. Əgər əşyaya bərpa, rekonstruksiya və yaxud konservasiya lazım olursa onu dərhal bərpaçının yanına "göndərirdilər".

Qeyd etmək lazımdır ki, bu muzeyin fondları ilə bağlı tədqiqatlar az saylıdır. Olanların da böyük bir hissəsi XX əsrin 60-70-ci illərinin əhatə edir. Təbii ki, muzey fondlarında bundan sonra da əşyaların sayı artmış və mövzu dairəsi genişlənmişdi.

XX əsrin 90-cı illərində Azərbaycan Mili İncəsənət Muzeyinə yeni bina ayrılmışdı ki, bu da ekspozisiyanın genişlənməsinin və saxlanclarda olan maraqlı əsərlərin üzə çıxması demək idi.

Bəllidir ki, muzey əşyasının dəyəri onun ideya məzmununun bədii-estetik vasitələrinin köməyi ilə muzey əşyalarında ifadəsini tapan elmi konsepsiya ilə təyin olunur. Muzey öz ekspozisiyasının quruluşunun vacib şərtini məzmununun və formanın vacibliyi təşkil edir. Bütün muzey ekspozisiyalarının quruluşunun əsası olan bu prinsip, onların ideya-bədii həlli dəyərinin əsas meyarlarından birini təşkil edir. Belə ki, eksponatın düzgün nümayişi heç də mühafizənin yaxşı və düzgün təşkilindən geri qalır.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, Azərbaycan Milli İncəsənət muzeyində bərpa və rekonstruksiya işləri tam yekunlaşmadığından onun ekspozisiyası tam şəkildə qurulmayıb, və kolleksiyanın çox az bir hissəsi tamaşaçılara nümayiş etdirilir.

Azərbaycan muzeyşünaslığının tarixi inkişafının ümumi xarakteri, onun parlaq nümayəndələrinin fəaliyyəti hələlik tam öyrənilməmişdir. Bu cəhət muzeyşünaslığın nisbətən gec təşəkkül tapması ilə əlaqədardır, Azərbaycan muzeylərinin SSRİ-nin muzey şəbəkəsinə daxil olması ilə bağlı idi. Yerli muzeylərin tarixi tam şəkildə araşdırılmırdı, yerli kadrların fəaliyyəti və yenilikləri vurğulanmırdı və yalnız respublika Mədəniyyət Nazirliyi səviyyəsində qeyd olunurdu. Halbuki, ölkəmizdə bu sahədə işləyən bir sıra tanınmış alimlərimiz var ki, bu sırada İ.Cəfərzadənin, S.Aşurbəylinin, P.Əzizbəyovanın, E.Paxomovun, S.Salamzadənin, R.Əfəndinin, M.Tərlanovun və başqaların adlarını çəkmək olar. Onlar muzeyşünas olmasalar da – tarixçi, sənətşünas və tədqiqatçı alim olduqlarından bu sahədə böyük xidmətləri olmuşdu. Azərbaycan muzeylərinin zənginləşməsində və təbliğ olunmasında böyük rol oynamış



***Нурлана Гудреддин кызы Багирова***

**Роль Азербайджанского Национального Музея Искусства в деле охраны, содержания и пропаганды декоративно-прикладного искусства**

## РЕЗЮМЕ

Диссертация посвящена всестороннему исследованию проблем образования и развития Азербайджанского Национального Музея Искусств, а также анализу коллекции декоративно-прикладного искусства, хранящейся в музее.

Диссертация состоит из введения, трех глав, восьми подглав, заключения и библиографического аппарата. Во введении обосновывается актуальность темы, определяется степень исследованности проблемы, цель и задачи, излагается научная новизна, характеризуются основные источники, хронологические рамки и практическая значимость работы.

**I** глава – «Становление музейного дела в Азербайджане и формирование Азербайджанского Национального Музея искусств» прослеживает основные этапы развития азербайджанского музейного дела, рассматривает становление и основные направления деятельности Азербайджанского Национального Музея искусств.

**II** глава – «Коллекция азербайджанского декоративно-прикладного искусства Азербайджанского Национального Музея искусств» анализирует образцы гончарного дела и художественного металла, хранящиеся в музее. Анализу подвергаются многочисленные экземпляры ковров, тканей, художественной вышивки, национальной одежды, а также музейная коллекция образцов художественной резьбы, представленная на дереве, камне и кости.

**III** глава – «Коллекция зарубежного декоративно-прикладного искусства Азербайджанского Национального Музея искусств» выявляет своеобразие коллекции фарфора и художественного стекла, текстиля, художественного металла и мебели.

В **Заключении** обобщаются основные выводы исследования.

2. Azərbaycan Milli İncəsənət Muzeyinin dekorativ-tətbiqi kolleksiyası, onun ekspozisiyasının müasir quruluşunun estetik xüsusiyyətləri işıqlandırılarkən tarixilik prinsipi əsas götürülmüşdür. Bu isə, problemin tarixi köklərini araşdırmaqla, onun əsaslandırılmış istiqamətlənməsini təmin edir;

3. Muzeyin xarici dekorativ-tətbiqi incəsənət ekspozisiyasında nümayiş olunan Avropa və Şərq ölkələrinin, eləcə də Azərbaycan dekorativ-tətbiqi incəsənət nümunələri ətraflı təhlil olunmuşdur. Bu ekspozisiyanın təşkil edilməsinin estetik əsaslarının iki əsas bazası vardır ki, bunlar da bədii və texniki amillərdən ibarətdir Bu fikir tədqiq olunan muzeydəki konkret nümunələrlə, tərtibat quruluşundakı xüsusiyyətlərlə təsdiq edilir;

4. Muzeylərin estetik quruluş səviyyəsinin inkişafı müvafiq istiqamətli təhsil sahələri ilə əlaqələnir ki, burada da baza ixtisasları olan «Muzey və abidələrin bərpası» və «Tətbiqi dizayn» fənləri üstünlüyə malikdir. Onların praktik fəaliyyəti və muzeylərlə canlı təmas qurması ekspozisiya təşkil edilməsinin estetik əsaslarını şərtləndirir və onun professional inkişafını təmin edir.

**Dissertasiyanın əsas məzmunu və müddəaları dissertantın aşağıdakı məqalələrində əksini tapmışdır:**

**1**. Художественное стекло России из коллекции Азербайджанского Национального Музея Искусств.// Материалы VI Международнойнаучной-коференции 11-12 апреля 2013г., Пятигорск, с.102-103.

**2**. Azərbaycan Milli İncəsənət Muzeyinin tekstil məmulatlarının bədii təhlili // "Mədəni həyat" № 5, Bakı - 2012, " Xatun Plus" mətbəəsi. səh 85-87.

**3**. Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılan xalça nümunələri //"İncəsənət və mədəniyyət problemləri". Beynəlxalq elmi jurnal, №3/33, Bakı- 2010, " Təknur" mətbəəsi, səh. 82-87.

**4**. К вопросу об актуальности изучения коллекции Азербайджанского Государственного музея искусств. Материалы международной научой конференции 17-19 ноября 2010 года //Пятигорск, с. 106-107.

**5**. Azərbaycan Dövlət İncəsənət Muzeyinin xarici çini sənət nümunələri kolleksiyası // "Mədəniyyət dünyası"-XIX , Bakı- 2010, ADMİU, AzTU-nun mətbəəsi , səh. 26-29.

**6.** Azərbaycan Milli İncəsənət Muzeyinin xarici dekorativ-tətbiqi sənət kolleksiyası // "Mədəni həyat" №6, Bakı-2012, "Xatun Plyus" mətbəəsi, səh. 78-80.



bu alimlərin fəaliyyətinin nəticəsi olaraq Azərbaycan 1992-ci ildə İKOM təşkilatının üzvü seçildi və bu günə kimi onun fəal üzvlərindən biridir.

Bununla belə, son dövrlərdə Azərbaycanda mövcud olan muzeylərin ölkəmizin mədəniyyətini və incəsənətini əks etdirən ekspozisiyaları artmaqda və genişlənməkdə, sürətlə inkişaf etməkdədir. Bu sırada ilk növbədə Azərbaycan Milli İncəsənət Muzeyinin zəngin kolleksiyasını qeyd etmək lazımdır. Qədim əsrlərdən müasir dövrə qədər yaradılmış təsviri və dekorativ-tətbiqi sənət əsərlərinin toplusu olan muzeydə Azərbaycan və dünya incəsənətinə aid zəngin dekorativ-tətbiqi əsərlərin kolleksiyası diqqəti cəlb edir. İndiyə kimi xüsusi olaraq tədqiqat obyektinə çevrilməmiş bu zəngin kolleksiyanın öyrənilməsinə, ayrı-ayrı sənət nümunələrinin bədii-estetik xüsusiyyətlərinin, eyni zamanda qorunması, saxlanılması və təbliği probleminin və bundan irəli gələn digər məsələlərin tədqiqinə ehtiyac duyulduğundan seçilmiş mövzunun aktual olduğu bir daha nəzərə çarpır.

Azərbaycan Milli İncəsənət muzeyinin iş prinsipinin öyrənilməsi, onun fondlarında və ekspozisiyada mövcud dekorativ-tətbiqi sənətlər kolleksiyasının estetik əsaslara uyğun təşkil olunma probleminin tam şəkildə araşdırılması, bu sahədə mövcud olan boşluqların üzə çıxarılması və onların həlli yollarının müəyyən olunması problemin aktuallığını daha da artırır.

Mövzunun aktuallığını əsaslandıran cəhətlərdən biri də dissertasiyada tədqiq olunan muzeyin dekorativ-tətbiqi sənət əsərlərinin dolğun və tam təhlil olunmamağıdır. Qeyd etdiyimiz kimi fondlarda saxlanılan əşyaların çox az bir hissəsi tamaşaçılara təqdim olunur. Ona görə də belə bir elmi işin meydana gəlməsi zəruridir. Burada fondla ekspozisiyanın sıx təması göstərilir. Onların qarşılıqlı şəkildə iş prinsipi ümumi işin xeyrinə təsir göstərir. Bütün bu məsələlərin öyrənilməsi, bədii estetik mahiyyətinin üzə çıxarılması müasir muzeyşünaslığa böyük töhfə verə bilər. Bunları öyrənməklə mövcud olan problemləri həll etmək olar.

**Tədqiqatın zaman hüdudları.** Araşdırma sərhədləri Azərbaycan Milli İncəsənət muzeyinin yaranması dövründən başlayaraq müasir dövrə qədər olan fəaliyyətini əhatə edir. Bu dövrdə toplanan və zənginləşən dekorativ-tətbiqi sənət kolleksiyası növ bölgüsü aparılaraq ardıcıllıq baxımından düzülərək araşdırılır.

**Mövzunun işlənmə dərəcəsi.** Muzeyşünaslıq nisbətən yeni elm sahəsi kimi hələ də özünün tam formalaşma səviyyəsinə çatmasa da, bu istiqamətdə xeyli iş görülmüşdür. Azərbaycan sənətşünaslıq elmində mövzu

baxımından muzeyşünaslıqla əlaqədar olan bir sıra tədqiqatlar aparılmışdır. Bu tədqiqatların əksəriyyəti muzey tarixini və ekspozisiya şəbəkəsinin ayrı-ayrı keyfiyyətlərini öyrənir, ekspozisiyanın quruluşundakı estetik xüsusiyyətlərinə isə qismən toxunur.

Muzeyşünaslıq sahəsində ilk tədqiqatlar Azərbaycanda sənətşünaslıq elminin formalaşdığı dövrə aiddir. 1945-ci ildə SSRİ EA-nın Azərbaycan filialının ayrıca Elmlər Akademiyasına çevrilməsi, digər sahələrdə olduğu kimi, bu sahənin inkişafına da təkan verdi. Muzeyşünaslıq sahəsindəki ilk tədqiqatlar dövrün ümumi konsepsiyasına müvafiq olaraq əsasən tarixi və təsviri səciyyə daşıyırdı. Bu dövr muzeyşünaslığın inkişafında əhəmiyyətli bir mərhələ olmuşdur, belə ki, sonrakı tədqiqatların əksəriyyəti məhz bu bünövrəyə əsaslanır. M.A.Qazıyevin ümumi redaktəsi altında çap edilmiş I və II buraxılış Azərbaycan Tarixi muzeyi ekspozisiya üzrə bələdçi (1958; 1961) və bu tipli digər nəşrlər respublikamızda muzeyşünaslığın inkişafı üçün əhəmiyyətli mənbə rolunu oynamışdır. B.Nəbiyevin tərtib etdiyi "Nizami adına Azərbaycan ədəbiyyatı muzeyi üzrə bələdçi" də (1975) bu qəbildəndir.

Son 20 ildə muzeyşünaslıqla bağlı yeni nəşrlər meydana gəlmişdi. Onlar muzeyşünaslığın demək olar ki, bütün sahələrini əhatə edir və bu sahənin öyrənilməsinə kömək göstərir. Onların arasında R.Ağayevin "H.Əliyev və muzeylərimiz" (1999), "Muzeyşünaslıq" (2004), A.H.Bayramovun "Tariximiz, yaddaşımız, sərvətimiz" (2007), "XXI əsrin muzeyi: problemləri, perspektivləri" (2007), İ.Hüseynovun və N.Əfəndiyevanın "Dünya muzeyşünaslığı və tarixi abidələr" (2007), Y.Eyvazovanın "Muzey ekspozisiyası" (2009), A.Allahverdiyevanın "Muzey fondu", (2010), S.Əmirxanovun "Azərbaycanda muzeyşünaslığın aktual problemləri" (2011) adlı tədqiqatları qeyd etmək olar.

Bu nəşrlər Azərbaycan dilində nəşr edilən elmi əsərlərdi, və bizim milli kadrlarımızın ərsəyə gəlməsində böyük kömək göstərir.

Muzeyşünaslıq estetikası məsələlərini də əhatə edən bu tədqiqatlar müxtəlif muzeylərin nəşr etdiyi elmi məqalələr toplularında öz əksini tapir. Belə toplularda Azərbaycan Tarixi muzeyinin 1984-cü il üçün elmi-tədqiqat işlərinin yekunlarına həsr olunmuş elmi sessiyanın materiallarını (1986), həmçinin bəzi digər nəşrləri göstərmək yerinə düşər. Azərbaycan sənətşünaslarından Ə.R.Salamzadə, A.Qazıyev, M.Nəcəfov, R.Əfəndiyev, N.Həbibov, N.M.Miklaşevskaya, C.Qiyasi və başqalarının əsərlərində



Muzeydə ağac üzərində oyma naxışlar olan əşyalar da saxlanılır. Qırmızı ağacdan hazırlanmış, səkkiz guşəli kiçik masa oyma naxışlarla örtülmüşdür, ayaqları isə çatma tağ formasındadır.

Kolleksiyasında əsaslı yerlərdən birini İranda hazırlanmış tunc, mis, dəmir, polad məmulatlar tutur. Həmin məmulatlardan silahlar, hərbi sursatlar, heyvan fiqurları, həmçinin məişətdə işlənən XIX əsrə və XX əsrin əvvəllərinə aid olanları göstərmək olar (güldanlar, məcməyilər, şamdanlar və s.). XVII-XVIII əsrə aid nümunələr də vardır ki, bu əşyaların işlənməsi üçün oymadan, döymədən, qızılı çərtmədən, şəbəkə ornament və minadan istifadə edilmişdir.

Azərbaycan Milli İncəsənət muzeyində qorunub saxlanılan, nümayiş etdirilən Qərbi Avropa mebel nümunələri arasında yuxarıda adı çəkilən mebel növlərinə rast gəlmək olur. Belə ki, burada konsol tipli masalara (konsol tipli saat məhz belə bir masanın üstündə nümayiş olunur), rokoko üslubunda işlənmiş yumşaq mebel dəstlərinə, ampir üslublu sekreterlərə, komodlara və s. rast gəlinir. Bu mebel nümunələrinin bədii həlli özünü enli əyilmiş xətlərdə, dairələrdə, ovallarda, əyilmiş yumşaq səthlərdə, oturacaqların rahat kürəklərində və maili bucaqlarda əksini tapırdı. Dekorativ tərtibat baxımından da rəngarənglik nəzərə çarpır. Mebel dəstləri bürünc açar yerləri, künc bəndləri ilə təkmilləşirdi. Onlar adətən palmetta, akant buruqları, dəfnə çələngi, şir təsvirləri, vaza və s. ornamental elementlərlə bəzədilirdi. Mebel üzlükləri reps parçası və ya qalın tonlu gül kretonlarından ibarət idi.

Bütövlükdə Azərbaycan Milli İncəsənət muzeyində nümayiş etdirilən xarici ölkə dekorativ-tətbiqi incəsənət kolleksiyası müxtəlif ölkələrin və dövrlərin sənət nümunələrini cəm edib. Eksponatları seyr etdikcə dünyada mövcud olan bədii sənayenin müvafiq sahələrinin inkişaf tarixini izləmək, müxtəlif dövrlərdə cərəyan edən üslub xüsusiyyətlərini müəyyən etmək olar.

**"Nəticədə"** dissertasiyanın əsas müddəaları müxtəsər elmi-nəzəri yekunlar şəklində ümumiləşdirilmişdir:

1. Tədqiqat işi Azərbaycan muzeyşünaslıq elmində muzeylərin ekspozisiya tərkibinin, onun quruluşunun estetik əsaslarını öyrənən və bu sahədə nisbətən aydın təsəvvür yaradan tədqiqat əsəridir. Milli muzeyşünaslıq fəaliyyətinin sürətlə inkişaf etdiyi müasir dövrdə onun aktuallığı öz ifadəsini əyani şəkildə tapmış olur;

edilir. Qədim yunan mifologiyasından götürülmüş mövzu əsasında işlənmiş heykəldə zərif qadın təsviri verilmişdir. Fransız interyerini bəzəmək üçün nəzərdə tutulan bu sənət əsəri aristokrat evinin dəbdəbəli quruluşunun əsas hissəsini təşkil edirdi. Bu kimi əsərlər çox vaxt görkəmli sənətkar əlinin məhsulu idi.

Saxsıdan düzəldilmiş müxtəlif ölçülü heykəlciklər də diqqəti cəlb edir. Fiqurlu kompozisiyalarda sadə xalqın şəhər və kənd həyatı, mənzərə fonunda, interyerdə fəaliyyəti, döyüş səhnələri, əhli-ətiq və əhdi-cəliddən götürülmüş səhnələr, mifoloji süjetlər təsvir olunurdu. Səhnələri bəzəyən dekorativ motivlər güllərin, gül dəstələrin, quşların, insan və quş fiqurlu gül bağçalarının harmoniyasını təşkil edən vahid birliyini təşkil edirdi. Bu heykəl kompozisiyalarda polixrom dekordan geniş istifadə olunurdu. Düzdür, saxsı fiqurlar özünün bir qədər kobud modelləşdirilməsinə görə çinidən düzəldilmiş plastik heykəlciklərə çata bilməzlər. Ən ilkin nazik saxsı fransız xörək gümüşünün təsiri altında formalaşır. Onların dekoru barokkonun, rokokonun və klassisizmin motivləri ilə müvafiq yaradılırdı. Nazik saxsının çiçəklənmə dövrünə təsadüf edən inkişaf materialın və formanın qabardılması ilə bağlı idi. Məhz buna görə biz bu dövrün məmulatlarında relyefli tərtibatın aydınlığını və tektonik formanın kamilliyini görə bilirik.

Onu da qeyd etmək lazımdır ki, muzeydə nümayiş olunan əksər sənət əsərləri, istər bu bədii metal məmulatı olsun, istərsə də zövqlə işlənmiş saatlar, gözəl mebel dəstlərinin üstündə yerləşdirilmişdir.

Qırmızı ağacdan nəmə davamlı, lak çəkilmiş bəzəkli əşyalar daha çox diqqəti cəlb edir. Belə oymalı əl işləri özünün hamarlığı, naxışlarının rövnəqi və şəkillərinin böyüklüyü, gülləri ilə seçilir. Ağacdan hazırlanmış nağıl qəhrəmanlarının heykəlləri Çində daha çox yayılmışdır. Bunlara misal Buddanın və sadə xalq qəhrəmanlarının heykəllərini göstərmək olar.

Muzeyin kolleksiyasında XVIII-XIX əsrə aid, üzərinə lak çəkilmiş əl işləri saxlanılır. Onların üstü miniatürlərlə bəzənmişdir. Bu qəbildən olan qələmdan, mücrü, kitab cildləri, papye-maşedən hazırlanmış kartlar, aydın naxışla bəzədilmiş zərif şəkillərin süjet və kompozisiyası miniatürü xatırladır.



muzeyşünaslıq məsələlərinə də toxunulur. R.Əfəndiyevin "Azərbaycan bədii sənəti dünya muzeylərində" (1986) adlı kitabı Rusiya, Fransa, Almaniya, İngiltərə, ABŞ, Macarıstan və digər ölkələrin muzeylərində şəxsi kolleksiyalarda saxlanılan Azərbaycan incəsənəti nümunələrindən bəhs edir. Muzeyşünaslıq problemləri Azərbaycandan kənarda da diqqət mərkəzindədir. İstər keçmiş sovet məkanında, istərsə də dünyanın digər ölkələrində bu sahədə maraq doğuran elmi əsərlər dərc edilməkdədir.

60-80-cı illərdə Moskva, Leninqrad, Kiyev, Daşkənd, Novosibirsk, Odessa, Tbilisi və digər şəhərlərdə fəaliyyət göstərən elmi mərkəzlər tərəfindən muzeyşünaslıq promlematikasının bir çox sahələrinə dair tədqiqatlar aparılmışdır. N.V.Mintsin redaktəsi altında çap edilmiş "İncəsənət muzeylərində elmi iş" (1965), F.Q.Krotovun redaktəsi ilə dərc olunmuş "SSRİ-də muzey işi" (1982) elmi məqalələr topluları, eləcə də müxtəlif illərə aid "Dövlət Ermitajın 100 illiyi" və başqa nəşrlər bu fikri əsaslandırmağa kömək edir. Bu əsərlərin siyahısına A.N.Voronixina və T.M.Sokolovanın "Ermitaj muzeyin binaları və zalları" (1968), A.İ.Qusevin "Pskov tarixi-incəsənət muzeyi" (1976), A.A.Demskayanın "Moskva Kremlinin Dövlət muzeyləri" (1987) və başqa kitabları da daxil etmək mümkündür.

XX əsrin sonlarından başlayaraq rus dilində nəşr edilən ixtisaslaşdırılmış ədəbiyyat da böyük maraq kəsb edir. Bu nəşrlərin əsasını yerli və beynəlxalq təcrübə təşkil edir. Onların arasında aşağıdakı əsərlər diqqəti cəlb edir: В.И.Фомин «Музейные фонды и фондовая работа» (1991), "Управление музеем (практическое руководство)" (2004), А.Д.Тельчаров «Основы музейного дела» (2005), М.Б.Кучеренко «Основы музееведения» под редакцией Ю.Шулепова. (2010), Ю.Сотникова «Музееведение» (2010), И.Юренева «Музееведение» (2010), И.Юренева «Музеи мира» (2011).

**Tədqiqatın obyekti və predmeti.** Elmi araşdırmanın predmetini Azərbaycan Milli İncəsənət muzeyində qorunub saxlanılan dekorativ-tətbiqi sənət kolleksiyasının təşkili, qorunması, saxlanması və təbliği problemi təşkil edir.

Tədqiqatın obyekti isə Azərbaycan Milli İncəsənət muzeyinin dekorativ-tətbiqi incəsənət kolleksiyanın tərkibinə daxil olan Azərbaycan,

Qərbi Avropa, Rusiya, Çin, Yapon, Hindistan, Türkiyə, İran sənət nümunələri təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Hazırkı tədqiqat işinin əsas məqsədini Azərbaycan Milli İncəsənət muzeyində qorunub-saxlanılan dekorativ-tətbiqi sənətə aid kolleksiyanın əsas nümunələrinin araşdırıb tədqiq və təhlil etmək, ekspozisiyanın təşkil olunmasının estetik əsaslarını öyrənmək, bu kolleksiyanın qorunması, saxlanılması və təbliğində muzeyin rolunu müəyyən etmək problemi təşkil edir. Tədqiqat obyektinə çevrilmiş muzeyin xarici və Azərbaycan dekorativ-tətbiqi sənətlər kolleksiyasına daxil olan eksponatların xüsusiyyətləri onların qarşılıqlı münasibətləri baxımından aşağıdakı istiqamətlərdə öyrənilmişdir:

- Azərbaycanda muzey işinin inkişaf mərhələləri izləmək;
- Azərbaycan Milli İncəsənət muzeyinin təşəkkülü və fəaliyyətinin əsas istiqamətləri göstərmək;
- Azərbaycan Milli İncəsənət muzeyinin dekorativ-tətbiqi incəsənət kolleksiyasının ekspozisiya tərtibatının estetik əsaslarının ümumi quruluşunu göstərmək;
- Muzeyin dekorativ-tətbiqi incəsənət kolleksiyasının seçilmiş nümunələrinin tədqiq və təhlil etmək, onların estetik mahiyyətini üzə çıxarmaq;
- Ekspozisiya şəbəkəsinin və ayrıca götürülmüş eksponatların interyer dizayn məkanları ilə estetik uyğunluğunu öyrənmək;
- Muzeyin bu sahəyə aid edilən kolleksiyasının mühafizəsi haqqında məlumat vermək;
- Əşyaların daşınmasına və qablaşdırmasına dair məlumat əldə etmək;
- Muzeydə istifadə olunan təlimatın əsas bəndlərinin təhlil etmək;
- Baş mühafizin və fond müdirlərinin peşə vəzifələrinin əsas istiqamətləri haqqında məlumat vermək;
- Muzeyin dekorativ-tətbiqi kolleksiyasının təbliği yolunda muzeyin gördüyü işləri göstərmək.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan Milli İncəsənət muzeyinin dekorativ-tətbiqi sənət bölməsi geniş formada təqdim olunmuşdur. Fondlarda saxlanılan maraqlı eksponatların ilk dəfə dissertasiya işində elmi təhlili və fotolarının təqdimatı verilmişdir. Dissertasiyada Azərbaycanın tanınmış ustalarının müəllif işləri təhlil olunmuşdu. Təəssüf hissi ilə demək



budaqlardan sallanan göy zınqırovların, küncləndə nağıl personajları olan iki maralın, iki durnanın, aşağıda əjdahaların, dalğaların üzərində bayquşların təsvirini görmək olar. Tikmə-panno ipək saplarla atlasın üzərində işlənilib. Ölçüsü 346x186 sm, vəziyyəti – tam deyil.

Muzeyin sərgisində və kolleksiyasında üzərinə naxışlar çəkilmiş İran mahudlar saxlanılır. Onların içində, üzərində rəngarəng saplarla çəkilmiş tambur tikmə daha çox seçilir, naxışlar bitki və böyük alabəzək gül dəstəsindən, enli haşiyəli bitki naxışlarından ibarətdir. Çəkinin üzərində ustanın adı və tarixi "Usta İsmayıl Rəştmi. Hicri 1293" qeyd olunub.

Muzeydə XVIII-XIX əsrlərin İran xalçaları da saxlanılır. Onlardakı rəsmlər və kolorit zərif, rəngarəngdir. Burada bitki rəsmləri daha çox əks olunmuşdur. Həmin dövrdə emalatxanalarda çox böyük olmayan solğun rəngli, bitki təsvirli xalçalar toxunurdu. Hazırda muzeydə XVIII əsrə aid bu tipli xalça saxlanılır. Xalçanın ortasında ağ rəngli, tağlı, içərisinə güllər qoyulmuş güldan təsvir edilmişdir. Kənarları güllər və yarpaqlarla bəzənmişdir.

İranda toxunulan ipək xalçalar da böyük şöhrət qazanmışdı. Tədqiqat aparılan muzeyin fondlarında onun ən maraqlı nümunəsi "Kiçik xalça" adlandırılır. Xalçanın mərkəzi ara sahəsindəki ağ fon üzərində müxtəlif əlvan güllərlə dolu güldan, onlardan yuxarıda verilmiş tağın ətrafı isə stilizə edilmiş nəbati ornamentlərlə sıx toxunmuşdur. Xalçanın yeləni üç haşiyədən ibarətdir. Xalça ipək saplardan toxunulub, əl işidir. Ölçüsü 110x78 sm, vəziyyəti tamdır.

Fəsildə muzeydə saxlanılan Türkiyə və Hindistan parça və tikmə nümunələri də araşdırılaraq təhlil olunmuşdur.

Fəslin **üçüncü yarımfəslində** muzeydə saxlanılan bədii metal və mebel kolleksiyasının təhlili aparılır. Araşdırmalar göstərir ki, Azərbaycan Milli İncəsənət muzeyinin xarici ölkə dekorativ-tətbiqi incəsənət nümunələri sırasına müxtəlif quruluşa və bədii tərtibata malik olan saat kolleksiyası da daxildir. Burada mühafizə olunan saatların sayı 20-ə çatır. Onlar müxtəlif tanınmış Avropa və Şərq saat məktəblərinə məxsusdur. Misal kimi, alman, ingilis, fransız, İsveçrə, yapon markalarını qeyd etmək olar.

Muzeyin dekorativ-tətbiqi incəsənət kolleksiyasında kiçik plastika nümunələrinə də rast gəlmək olur. Buraya həm keramikadan, həm də metaldan düzəldilmiş heykəlciklər daxildir. Bürüncdə işlənmiş Raul Larşenin "Zeytun ağacına çevrilən Dəfnə" əsəri XX əsrin əvvəllərinə aid

dümağ üzü rəngarəng fon kimi istifadə olunub. Onun üzəri müxtəlif nəbati naxışlar, mənzərə və janr kompozisiyaları üçün nəzərdə tutulub. Eksponatlar arasında ağ-göy çini nümunələrini görə bilərik. Mina altında zəngin çalarlı kobaltla naxışlanmış məmulatlar, parlaq yaşıl, sarı, qırmızı rənglərlə həmahəngdir.

Muzeydə saxlanılan çərçivəli mina məmulatı da böyük maraq doğurur. Axarlı çalarları ilə parçanı və tikməni xatırladan belə məmulatlar, Min dövründən başlayaraq Çində geniş yayılmağa başlayır. Bu texnikada işlənmiş sənət əsərləri sırasında tənbəki qablarını, vazaları, mücrüləri və nimçələri qeyd etmək olar.

Bu dövrdə işlənmiş parça və tikmələr də sərgi salonunun bəzəyinə çevrilmişlər. Zəngin bəzəyi və rəngarəngliyi ilə onlar mebelin və çininin dekorativ xüsusiyyətlərini bir qədər də qabardırlar. Kompozisiya tamlığı ilə seçilən tikmə əsərləri, mənzərə və janr süjetlərini əks etdirirlər.

Fəslin **ikinci yarımfəslində** muzeydə saxlanılan tekstil kolleksiyasının təhlili aparılır. Qeyd edilir ki, Azərbaycan Dövlət Milli İncəsənət muzeyi xarici ölkələrdə istehsal olunmuş zəngin tekstil kolleksiyasına malikdir. Muzeydə qorunub-saxlanılan bədii naxışlı Çin ipəyi maraq doğurur. Bu ölkənin parçası və parça üzərində bədii tikmə sənəti öz rəngarəngliyi ilə seçilir. Onlar sanki dekorativ tərtibatlı mebelləri və çini qabların gözəlliyini tamamlayırlar. Tikmədən mənzərə, janrlardan mövzular, filosofların portretlərindən ibarət olan bu əl işləri mükəmməl kompozisiya yaradırlar. Zalın divarlarını XVII-XVIII əsrlərdə işlənilmiş pannolar bəzəyir. İki pannoda qabarmış formada müdriklər təsvir edilib. Hər pannonun üst və sağ küncündə qədim çin dilində şaquli istiqamətdə yazılar var. Belə iş metodu ipəklə işləyən rəssamlar üçün xarakterik idi.

Muzeydə yapon naxış tikmələrindən bir neçə nümunə mühafizə edilir ki, onlar mövzu genişliyi ilə diqqəti cəlb edir. Həmin işlər XVIII əsrə aiddir. Onlardan biri muzeyə vaxtı ikən gələn tamaşaçıların və alimlərin marağına səbəb olub. Adı çəkilən tikmə-panno XVIII-XIX əsrə təsadüf edir. İki parça narıncı qalın atlasın üzərində rəngbərəng ipək saplarla və bafta ilə mərkəzi kompozisiyada kübar geyimli üç kişi və bir uşaq fiquru tikilmişdir. Bu təsvirləri 4 ünsürə və yaxud 4 allaha aid etmək olar; sağlamlıq allahı, peşə allahı, uzunömürlülük allahı, övlad bəxş edən allah. Tikmənin mərkəzində böyük planda qeyd etdiyimiz kimi, zəngin geyimdə 4 fiqur təsvir edilib. Pannonun naxışının haşiyəsində qadın və kişi, yuxarıda enli haşiyədə



lazımdır ki, onların adları və əsərləri gənc nəsil üçün tanış deyil. Amma bu rəssamlar Azərbaycan tətbiqi sənətinin Sovet dövrünün parlaq nümayəndələri olmuşlar. Onlar bizim ölkəni beynəlxalq sərgilərdə təmsil etmişlər. Onların arasında H.Abdullayeva, O.Şixalıyev, L.Ağamalova, T.Ağababayev və başqaları var.

Burada həmçinin, Avropa və Şərq ustalarının əsərləri ilk dəfə dərindən təhlil olunur. Burada onların oxşar və fərqli cəhətlərinə diqqət göstərilir, onların maraqlı nümunələrinin fotoları təqdim olunur. Qeyd etmək lazımdır ki, təhlil olunan əsərlərin böyük bir hissəsi fonddan götürülüb və müasir ekspozisiyada hələlik öz əksini tapmayıb.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Dissertasiyanın metodoloji əsasını sənətşünaslıqda qəbul olunmuş tarixi-müqayisəli metoddan istifadə təşkil edir. Tədqiqat prosesində elmi-nəzəri, əyani-təcrübi materialların təhlili aparılmış, muzeyin daimi ekspozisiyasında nümayiş etdirilən və fondlarında saxlanılan empirik materialdan geniş istifadə edilmişdir.

Tədqiqat zamanı muzeyşünaslığa dair məlum ədəbiyyatdan geniş istifadə edilmişdir ki, ədəbiyyat siyahısının zənginliyi buna sübutdur. Siyahıya daxil olan kitablar həm rus, həm də Azərbaycan dillərindədir. Bundan başqa, Milli İncəsənət muzeyinin zəngin kitabxanasında saxlanılan nadir nəşrlərdən də istifadə olunmuşdu. İstifadə olunan ədəbiyyat həm nəzəri, həm də praktik məsələləri əhatə edir.

Muzey fondunun işini və mühafizə qaydalarını araşdırarkən beynəlxalq və yerli qanunvericiliyə müraciət edilmiş, bu qanun əsasında tərtib edilmiş muzey təlimatı öyrənilmiş və onun tətbiq olunması qaydaları konkret olaraq bu muzeydə nəzərdən keçirilmişdir. Fondlarda işləyərkən Baş İnventar və İnventar kitablarla tanış olunmuş, elmi-inventar vərəqələrdə olan məlumatlar nəzərdən keçirilmişdir. Əsərlərin fotolarından və orijinal nüsxələrindən bilavasitə istifadə olunmuşdur.

**Dissertasiyanin təcrübi əhəmiyyəti.** Yetişməkdə olan gənc nəslin formalaşmasında, onun bədii-estetik, humanist əxlaqi və vətənpərvərlik hisslərinin inkişaf etdirilməsində muzeylərin rolu əvəzedilməzdir. Bu baxımdan bir çox muzeylərdən, xüsusilə Azərbaycan Milli İncəsənət muzeyinin tədris prosesində istifadə etməsi mümkündür. Belə bir şəraitdə muzey işinin təşkili, Azərbaycan milli muzeyşünaslığın nəzəri və praktiki cəhətlərinin öyrənilməsi bizim üçün xüsusilə böyük əhəmiyyət kəsb edir. Cəmiyyətdəki yeniləşmə prosesi təbii ki, muzeyşünaslıq sahəsində də özünü

büruzə verməlidir. Yeni muzeylərin yaradılması, mövcud muzeylərin rekonstruksiyası, milli muzeyçilik ənənələrimizin nəzəri xüsusiyyətlərinin, şəxsiyyətin formalaşmasında muzeylərin tərbiyəvi əhəmiyyətinin öyrənilməsi və digər problemlər müasir muzeyşünaslığın qarşısında duran əsaslı vəzifələrindəndir.

Həmçinin, bu material Azərbaycanın mədəniyyət və incəsənət təmayüllü orta və ali tədris müəssisələrində metodik vəsait kimi istifadə edilə bilər. Burada təqdim olunan foto materialların böyük bir qismi geniş tamaşaçı kütləsinə məlum deyil. Ona görə də qeyd olunan işin albomu böyük maraq kəsb edir.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiyanın əsas müddəaları müxtəlif səviyyəli elmi konfranslarda dinlənilmiş, eləcə də müəllifin çap olunmuş altı məqaləsində əksini tapmışdır. Tədqiqat işi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Mədəniyyət və muzeyşünaslıq" kafedrasında yerinə yetirilmiş və müzakirə edilərək müdafiəyə buraxılmışdır.

Dissertasiyanın əsas elmi məzmunu və müddəaları müəllifin xarici və yerli elmi nəşrlərdə çap edilmiş məqalələrində, konfrans və elmi seminarlarda dinlənilmiş məruzələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, səkkiz yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın məzmunu kompüter yığımının 151 səhifəsində öz əksini tapmış, illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## DİSSERTASİYANIN QISA MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun müasir sənətşünaslıq və mədəniyyətşünaslıq elmi üçün aktuallığı, tədqiqatın obyekti, predmeti və problemləri, məqsəd və vəzifələri, tədqiq tarixi və işlənmə dərəcəsi, elmi yeniliyi və nəzəri-təcrübi əhəmiyyəti, metodoloji əsasları, aprobasiyası və strukturu haqqında məlumat verilir.

Dissertasiyanın **"Azərbaycanda muzey işinin təşəkkülü və Azərbaycan Milli İncəsənət muzeyinin formalaşması"** adlı **I fəslin** ilk yarımfəslində Azərbaycanda muzey işinin meydana gəlməsi haqqında söhbət açılır və onun inkişaf mərhələləri araşdırılır. Azərbaycanda



Kəndli səhnələrini əks etdirən servizlər, S.S.Pimenovun modelləri əsasında düzəldilən kəndli fiqurları, "Rusiya xalqları" adlı kiçik plastika seriyası və s. zavodun əsas nailiyyətlərindən sayıla bilər. Buna bənzər nümunələri biz muzey kolleksiyasında seyr edə bilərik. Eksponatlar içərisində müxtəlif ölçülü nimçələr, vazalar, çaydanlar, şərbət qabları görə bilərik. Zəngin bədii tərtibata malik olan bu əşyalar, qızılı rənglə işlənmiş naxışlarla örtülüb.

Milli muzeyin kolleksiyasında Romanovlar ailəsinin nümayəndələrinə məxsus olan əşyalar da saxlanılır. Onlar muzeyə XX əsrin 20-30-cı illərində Rusiya muzeylərindən verilmişdi və uzun müddət çini fondunda saxlanılırdı. Lakin son illərdə adı qeyd olunan fonda elmi inventarlaşdırma və atribusiya aparılmış və qabların layiqli qiyməti verilmişdi. Misal kimi, Böyük knyaz Konstantin Nikolaeviçin "VKKN" servizinin bəzi hissələrini qeyd etmək olar. Bu dəst 1848-1852-ci illərdə istehsal olunub.

Azərbaycan Milli İncəsənət muzeyində müxtəlif əşyaların kolleksiyasında şüşədən, büllurdan hazırlanmış əşyalar da öz layiqli yerini tutur. Bu məmulatların hazırlanmasında müxtəlif texniki üsullardan istifadə edilmişdir. Rəngsiz şüşədən hazırlanmış kubokun üzəri oyma naxışlarla bəzənmişdir. Kubokun dirəyi mərkəzdən genişlənmiş, almaya bənzər və sütun şəklindədir. Naxışların əsas motivi dövlət gerbi və venzeldən ibarətdir. Onlar bitki budaqları, qıvrımları və zəngin kartuşla haşiyələnmişdir. Onun yanında qrafin və bir neçə qədəh nümayiş edilir, qədəhlər almaz oyma ilə işlənib. Muzeyi ziyarət edənlər kolleksiyada nümayiş edilən büllurdan yonulmuş flakonlara, dolçalara, kuboklara, qədəhlərə və bardaqlara tamaşa edə bilərlər.

Muzeydə nümayiş olunan Çin çinisi də diqqəti cəlb edir. Təqdim olunan çini sənət nümunələrini seyr edərkən, belə bir nəticəyə gəlmək olar ki, relyefli dekor məmulatın materialına cızma, perforasiya üsulu ilə və ya relyefli qabartma üsulu ilə tətbiq olunub. Məmulatların bir qismi formalarda relyeflə bir yerdə tökülüb, digərlərində isə relyef və ya dekorun plastik hissələri (güllər, yarpaqlar, qulp rolunu oynayan fiqurlar və s.) ayrıca formalaşaraq yapışdırılır. Rəngli dekor ya minanın altında, ya da onun üstündə icra olunur. Mina altı rəsmlərlə işlənmiş çini qablar ekspozisiyasında Çin və Yaponiya məmulatlarında təqdim olunub.

Azərbaycan Milli İncəsənət muzeyində mühafizə olunan Çinin keramika məmulatı parlaqlığı və dekorativ zənginliyi ilə seçilir. Qabların

Muzeyin fondlarında XVII-XVIII əsrlər Delfit saxsısının göy şirli yazılarla bəzənmiş bir neçə nümunəsini görürsünüz. Yalnız bir ədəd boşqab müxtəlif rəngli naxışlarla Avropa üslubunda işlənmişdir. Ekspozisiyada nümayiş etdirilən vaza və boşqablar da Şərqi Çin və Avropa üslubunda işlənmiş Delfit saxsı məmulatlarıdır.

Muzeyin dekorativ-tətbiqi sənət ekspozisiyasında Avropanın məşhur Meysen çinilərinin böyük kolleksiyası nümayiş olunur. Xüsusi diqqətə kiçik plastikada həll olunmuş fiqurlar layiqdir. XVII əsrin 40-cı illərinə aid edilən dekorativ çini fiqurlar müxtəlif mövzuları əhatə edir: alleqorik və mifoloji təsvirlər, krinolin libaslı xanımlar və kavalerlər, İtalyan komediya maskaları, sənətçilər, kəndçilər, tacirlər, əsgər və ovçular, çobanlar. Qablar sadə və ciddi formadadırlar. Onların üzəri müxtəlif formalı xırda güllərlə, yarpaqlarla örtülüb. Nimçələr arasında Markolini dövrünə (1774-1814) aid edilən üzəri "kral göyü" adlandırılan göy rənglə örtülmüş serviz nümunələri diqqəti cəlb edir. Təsvir üçün nəzərdə tutulan medalyondan başqa hər tərəfi göy rənglə örtülmüş nimçələr, zərifliyi və gözəlliyi ilə seçilirlər.

Beləliklə, Azərbaycan Milli İncəsənət muzeyində nümayiş etdirilən Avropa çini məmulatları nümunələri bu məşhur manufakturanın vaxtilə istehsal etdiyi məhsullardandır. Eksponatlar arasında müxtəlif ölçülü dekorativ fiqurlar, vazalar, saatlar, nimçələr gözə çarpır.

Xarici çini məmulatı kolleksiyasında XIX əsr Fransa çini zavodunun məhsullarını da görə bilərik. Bu nümunələr Parisin (Daqoti, Nasta, Felye) Sevr çini zavodlarının məhsullarıdır. Nümunələri vitrində əks olunmuş ayrıca fiqur və qrupların hazırlanmasında çini-biskvitdən daha çox istifadə olunurdu. Onlar üçün modelləri məşhur fransız heykəltəraşları L.S.Buazo, J.B.Deferne, E.M.Falone hazırlayırdılar. Sevr zavodu indiyə qədər Fransada çini istehsalında əsas mərkəz kimi əhəmiyyətini qoruyub saxlamışdır.

Muzeydə mühafizə olunan Rusiya keramikası Peterburqun İmperator zavodunun çini və saxsı məmulatları ilə təqdim olunub. Tarixdən məlumdur ki, rus çinisi 1747-ci ildə D.İ.Vinoqradov tərəfindən icad edilmişdir. İlk dövrlərdə barokko üslubunda az sayda məmulat istehsal edən Peterburq imperator zavodu tez bir zamanda çini qablarının keyfiyyəti baxımından Avropada ən yaxşı zavodlardan birinə çevrildi.



muzeyşünaslığın inkişafı xüsusiyyətlərinə qısaca nəzər yetirilmiş, tarixi cəhətlərin bəzi məqamları aydınlaşdırılmışdır.

Azərbaycanda muzeylərin yaradılması XX əsrə təsadüf etsə də, muzey xarakterli kolleksiyaçılıq ənənələri qədim tarixə malikdir. Mənşə etibarilə Azərbaycan incəsənətinə bağlı olan bir çox maddi-mədəniyyət nümunəsi toplu şəklinə müxtəlif ölkələrə aparılmış və orada muzey işinin təşkilinə təkan vermişdir.

Yeni dövrün astanasında Azərbaycan torpaqlarının iki yerə parçalanması təkcə muzeyçiliyin meydana gəlməsini ləngitməmişdir. Bu hal həm də Azərbaycan muzeylərində ekspozisiya şəbəkəsinin zənginliyində, rəngarəng olmasında da neqativ xarakter daşımışdır. Biz milli muzeylərimizdə orijinal, olduqca böyük bədii və tarixi qiymətə malik olan Təbriz və Qəzvin nümunələrini, Xoy və Mərənd keramikasını, Ərdəbil xalçalarını, Zəncan misgərlərinin nəfis bir şəkildə hazırlandığı qiymətli bədii metal, zərgərlik nümunələrini görmürük. Halbuki bu nümunələri nümayiş etdirmək hüququ, ilk növbədə, milli Azərbaycan muzeylərinə məxsusdur.

Bilavasitə muzeylərin yaradılmasına gəlincə qeyd edildiyi kimi, bu yalnız XX əsrin əvvəllərində mümkün olmuşdur. Tarixi bölgü prinsipi baxımından 1919-1920-ci illərdə Azərbaycanda muzey işinin erkən mərhələsi kimi qiymətləndirilə bilər. 30-50-ci illər Azərbaycanda muzeyçilik fəaliyyətinin genişlənməsi, müxtəlif profilli muzeylərin meydana gəlməsi dövrüdür. Bu dövrdə muzeylərin eksponat şəbəkəsi xeyli genişlənmiş, ekspozisiyasının bədii-estetik xüsusiyyətləri təkmilləşmişdi. 60-80-ci illər Azərbaycanda muzey işinin klassik inkişaf mərhələsidir. Bu dövrdə muzeyçilik fəaliyyəti yüksək peşəkar keyfiyyətlər əldə etmiş, muzeyşünaslığın elmi-metodoloji bazasının əsası qoyulmuşdur.

Nəhayət, 90-cı illər Azərbaycan muzeyşünaslığında müasir mərhələ təşkil edir. Bu mərhələdə Azərbaycan muzeyşünaslığında rekonstruksiya, bədii-estetik təfəkkür tərzi, əxlaqi-etik dəyərlər və s. problemlər öz aktuallığı ilə diqqəti cəlb edir. Bu xüsusiyyətlər tədqiqat obyektinin əsasını təşkil edir. Məhz bu izləmə müasir dövrdə Azərbaycanda muzey estetikası prinsiplərinin hansı köklərdən süzülüb gəldiyini öyrənməkdə bizə kömək göstərir. Varislik və ənənələrin nəsildən-nəslə ötürülməsi kimi son dərəcə əhəmiyyətli olan bu ümumi inkişafın əsas şərtlərindən sayılan tarixi platforma və onun öyrənilməsi, göründüyü kimi, özünü tamamilə doğruldur.

**Fəslin ikinci yarımfəslində** "Azərbaycan Milli İncəsənət muzeyinin təşəkkülü və fəaliyyətinin əsas istiqamətləri" nəzərdən keçirilir.

Hələ XIX əsrin ikinci yarısından etibarən mütərəqqi dünyagörüşünə malik Azərbaycan ziyalıları hər vasitə ilə xalqın mədəni şüur səviyyəsini yüksəltməyə çalışırdılar. Həmin dövrdə xalqın milli şüur səviyyəsinin yüksəldilməsi milli burjuaziyanın qarşısında duran əsas mənəvi vəzifələrdən idi. Artıq bu dövrdə milli mədəniyyətin inkişafı sahəsində xeyli iş görülmüş, peşəkar teatr, musiqi, kino kimi incəsənət növləri formalaşmağa başlamışdı. Təbii ki, muzeylərin yaradılması bu işdə çox böyük bir rol oynaya bilərdi.[1]

Azərbaycanda incəsənət yönlü muzeylər içərisində ən əhəmiyyətlisi Azərbaycan Milli İncəsənət muzeyidir. Bu muzey respublikanın ən böyük incəsənət muzeyidir.

1920-1930-cu illərdə Sankt-Peterburq (o dövrdə Leninqrad) və Moskva muzeylərindən Bakıya göndərilmiş sənət əsərləri (şəkillər, heykəllər, dekorativ sənət nümunələri) göstərmək məqsədi ilə, Azərbaycan Dövlət muzeyi nəzdində incəsənət şöbəsi yaradılıb. Bu şöbə, muzey salonlarında vaxtaşırı sərgilər düzəldib rus, Qərbi Avropa və Azərbaycan rəssamlarının əsərlərini nümayiş etdirirdi. İncəsənət şöbəsi ildən-ilə yeni eksponatların hesabına zənginləşirdi. Eksponatların bir hissəsi mərkəzi muzeylərdən göndərilirdisə, başqa bir hissəsi (ən çox xalq sənəti nümunələri) Azərbaycanın şəhər və kəndlərindən toplanıb Bakıya gətirilirdi. Yerli rəssamların da əsərləri dövlət tərəfindən alınıb muzeyə verilirdi. Beləliklə, 10-15 il müddətində Dövlət muzeyinin incəsənət şöbəsində 3000 sənət əsəri cəmlənmişdi. 1936-cı ildə Azərbaycan SSR Xalq Komissarları Şurasının qərarına əsasən Bakı Dövlət İncəsənət Muzeyi təşkil edildi və yeni muzey xalq komissarları Şurası yanındakı incəsənət işləri İdarəsinin tabeliyinə verildi. O zaman hər iki muzey – Azərbaycan tarixi muzeyi və İncəsənət muzeyi Bakının mərkəzində, gözəl bir binada yerləşirdi. Yeni muzey öz fəaliyyətini iki istiqamətdə davam etdirirdi: kolleksiyaları genişləndirmək məqsədilə eksponatlar toplayır, ayrı-ayrı məktəblərə mənsub olan sənətkarların əsərlərini xalqa göstərirdi. İncəsənət muzeyinin ilk ekspozisiyası 1937-ci ilin may ayında açılmışdı. O zaman ölkənin ən zəngin muzeylərindən – Leninqraddakı Dövlət Ermitajı və

[1] Muzeyşünaslıq – Bakı, 2002, s.84.



geniş istifadə olunan bu üslubun nümunələrinə Şuşada, Şəkidə, İrəvanda rast gəlmək olar.

Taxta üzərində bəzəkaçma sənətinin başqa üsullarından biri də xətamkarlıqdır. Akademik R.Əfəndi yazırdı ki, "... taxta üzərindəki xatəmkarlıq bundan fərqli olaraq daha zərif və rəngarəng olur. Bu da onunla izah edilir ki, taxta üzərində işləmək sənətkar üçün metala nisbətən daha asandır. Burada sənətlər, metalla işlədilən qızıl və gümüşdən başqa, qeyri materiallardan, o cümlədən sədəf, fil sümüyü, kəhrəba, müxtəlif qiymətli daş-qaşlardan, rəngli ağaclardan da istifadə edə bilir".[14] Bu üsulla bəzədilmiş musiqi alətləri – tar, kamança, saz, qaval, ud əsasən Naxçıvan, Təbriz, Ərdəbil, Şuşa nümunələri ilə təmsil olunmuşdur. Milli muzeyin kolleksiyasında bir neçə müasir dövrə aid edilən sənət əsəri mühafizə edilir. Bu sənət əsərləri XX əsrin 50-60-cı illərində Əli Minayi, Əli və Hüseyn Pariyab qardaşları tərəfindən hazırlanmışdı.

Qeyd etmək lazımdır ki, adı çəkilən muzey eksponatları dəfələrlə beynəlxalq və respublika sərgilərində nümayiş etdirilib və daim böyük marağa səbəb olublar. Misal kimi, Almaniyada və İtaliyada keçirilən Azərbaycan sərgilərini çəkmək olar. Burada rəsm, əsərləri ilə yanaşı xalq sənəti də təmsil olunmuşdu. Həmişə olduğu kimi Azərbaycan xalça sənəti böyük marağa səbəb olmuşdu.

Sevindirici haldır ki, son dövrlərdə xalq sənətinə maraq artıb və bu sahədə islahatlar aparılır, gənc nəsil bu prosesə aktiv cəlb olunur. El sənətimizin nümunələri suvenir şəklində istehsal olunur və müasir mədəniyyətin təbliğatında iştirak edir. Muzeylərin virtual modelləri hazırlanır və muzey kolleksiyaları burada geniş təmsil olunacaq. Bu faktorda bu mədəniyyət ocağına marağın artmasına kömək edəcək.

Dissertasiyanın **"Azərbaycan Milli İncəsənət muzeyinin xarici dekorativ-tətbiqi sənət kolleksiyası"** adlanan **III fəslinin birinci yarımfəslində** muzeyin xarici kolleksiyasına daxil olan çini və şüşə qablar kolleksiyasının təhlili aparılır. Burada klassik quruluşa malik Azərbaycan Milli İncəsənət muzeyinin kolleksiyası ardıcıl olaraq təhlil olunur, daha maraqlı əsərlər haqqında geniş məlumat verilir. Kolleksiya konkret mərhələlərə, dövrlərə, növlərə təsnif olunaraq araşdırılır.

[14] Rasim Əfəndiyev. Azərbaycan xalq sənəti – Bakı, 1984.

və tikmə üsulu ilə icra edilirdi. Parçanı basma qəliblərlə bəzəmək Azərbaycanın bir çox yerlərində inkişaf etmişdir. Bu işdə Naxçıvan, Gəncə, Şamaxı, Təbriz ustaları xüsusilə şöhrət qazanmışdılar.[12] Muzeyin dekorativ-tətbiqi sənət kolleksiyasına XIX-XX əsrin əvvəllərindən Azərbaycanda istehsal olunmuş müxtəlif çeşidli saya və naxışlı ipək parçalar da daxildir. Bunlardan kimxa, tafta, darayı, mov, cecim və s. misal gətirmək olar.

Azərbaycan Milli İncəsənət muzeyində Azərbaycan sənətkarları tərəfindən XVIII əsrdə hazırlanmış bir neçə bədii qələmkar parçalar saxlanmaqdadır. Bədii tikmə məmulatları ornamental motivlərin zənginliyi və müxtəlifliyi ilə fərqlənirdi. Azərbaycan bədii tikmələrində ən çox işlədilən bitki motivləri qızılgül, nərgiz, qərənfil, lalə, zanbaq, meyvə ağaclarının yarpaqları – nar, heyva, alça çiçəkləri, eləcə də sünbül və müxtəlif formalı yarpaqlardır.[13] Misal kimi, muzeydə saxlanılan Süfrəni qeyd etmək olar**.** Tikmə Şəkidə (Nuxada) XX əsrin əvvəllərində işlənilib. Qara mahud üzərində təkəlduz tikməli stilizə edilmiş nəbati ornamentlər simmetrik təkrarlanır. Əsas rəngləri: qırmızı, narınc, yaşıl və mavidir. Ölçüləri 88 x 68, saxlanma vəziyyəti tamdır.

Dissertasiyada muzeydə qorunub-saxlanılan çeşidli xalça, bədii parça və tikmə növlərinin geniş təhlili aparılır, onların bədii və texnoloji xüsusiyyətləri müəyyənləşdirilir, bu sənət növlərinin sintezindən əmələ gələn və muzeyin sərgi salonlarını zənginləşdirən milli geyim nümunələrinin ən parlaq nümunələri olan arxalıq, çəpkən, baharı, kürdü və s. tədqiq edilir.

Fəslin **üçüncü yarımfəslində** muzeydə saxlanılan oyma sənəti nümunələri (ağac, daş, sümük) tədqiq və təhlil edilir. Tədqiqat nəticəsində müəyyən edilir ki, muzeyin kolleksiyasında müxtəlif növ mücrülər və nadir əlyazmalar üçün dayanacaq olan rəhillər şəbəkə ustalarının əli ilə hazırlanırdı, çox vaxtı onlar naməlum rəssamlar tərəfindən bəzədilirdi. Bədii taxta tərtibatını ən maraqlı üslublarından biri olan şəbəkə üslubun maraqlı nümunələri XVII-XVIII əsrlərə aid edilir. İlk olaraq memarlıqda

---

[12] Гулиев Г.А. Азербайджанские вышивки. СЭ, №2, М., 1953, с. 152.
[13] Rasim Əfəndiyev. Azərbaycan xalq sənəti – Bakı, 1984, s.131.



Dövlət Rus Muzeyindən, Moskvadakı Dövlət Tretyakov Qalereyası, A.S.Puşkin adına Təsviri İncəsənət Muzeyi və Şərq Xalqları Mədəniyyəti muzeyində Azərbaycan İncəsənət Muzeyinə yüzlərlə sənət əsəri – heykəl, çini, büllur, metal məmulatı və sair göndərilmişdi. Eyni zamanda muzeyin milli sənət şöbəsini genişləndirmək məqsədi ilə yerli rəssamlara sifarişlər verilir, sərgilərdən əsərlər alınırdı. Mirzə Qədim İrəvanı, Mir Möhsün Nəvvab, Əzim Əzimzadə, Bəhruz Kəngərli, Qəzənfər Xalıqov, Fuad Əbdürrəhmanov, Salam Salamzadə, Rüstəm Mustafayev və başqa rəssamlarımızın bir sıra əsərləri həmin dövrdə İncəsənət Muzeyinə verilmişdir.

Vətən müharibəsi illərində müvəqqəti olaraq Nizami Muzeyinin binasına köçürülmüş İncəsənət Muzeyinə 1951-ci ildə ikimərtəbəli gözəl bir bina verilmişdir. Çkalov küçəsindəki (indiki Niyazi) həmin binanı keçən əsrin axırlarında tikdirmişdirlər.

Ekspozisiya salonları ardıcıl olaraq Azərbaycan, rus, Qərbi Avropa (İtaliya, Fransa, Hollandiya) sənətkarlarının orijinal əsərlərini, habelə, İran, Türkiyə, Hindistan və sair bu kimi Şərq ölkələrində istehsal edilmiş dekorativ-tətbiqi sənət nümunələrini göstərməyə imkan verir.

1943-cü ildə muzeyə R.Mustafayevin adı verilmişdir. Haqqında söhbət açılan muzey Azərbaycanda bilavasitə təsviri və tətbiqi incəsənətə həsr edilmiş əsas muzeydir. Bədii əsərlərin nümayiş etdirilməsi bu muzeyin əsas peşəkar göstəricisidir. Muzeyin fondunda 18000-ə yaxın incəsənət əsəri saxlanılır. Muzeyin əsas fondu bir neçə bölmədən ibarətdir, araşdırmamıza daxil olanların arasında – dekorativ-tətbiqi, çini, metal, xalça və xalça məmulatları fondlarıdır.

Azərbaycan Respublikasındakı muzeylər dövlət muzey fondunun tərkibinə daxil olan maddi və mənəvi mədəniyyət tarixi, memarlıq abidələrinin əsas qoruyucularından biridir. Bu qurum abidələrin uçotunu, tam mühafizəsini və elmi tədqiqini təmin edirlər. Azərbaycan Respublikasının «Muzeylər haqqında» Qanunun İ fəslində qeyd olunur: « muzey fəaliyyəti – elmi, mədəni, mənəvi və estetik tələbatın ödənilməsi məqsədilə insan, onun fəaliyyəti və yaşayış mühiti haqqında mədəniyyət

sərvətlərinin və maddi nümunələrin əldə edilməsi, qorunması, uçotu, tədqiqi, təbliği və nümayişindən ibarətdir». [2]

Yuxarıda deyinənlərə əsaslanaraq, bildirmək lazımdır ki, muzey yalnız mühafizədən ibarət deyil, o özündə kompleks işlər nəzərdə tutur. Mühafizə işi – muzeylərin tarixən təşəkkülünün əsas aspektlərindən biri olduğu üçün bu sahə muzey fəaliyyətinin ənənəvi və klassik iş məzmununu təşkil edir. Mədəniyyətin əsas infrastrukturlarından biri kimi muzeylərə mühafizə edici obyektlər kimi yanaşma ideyası da, məhz burdan irəli gəlir. Tarixin ən dərin və keçmiş qatlarından dövrümüzə qədər uzun yolu keçərək gəlib çatan maddi və mənəvi sərvətlər məhz mühafizə işinin düzgün və yüksək elmi əsaslarla təşkili nəticəsində mümkün olmuşdur. Mühafizə muzey əşyalarının qorunub saxlanılması meyarı kimi səciyyələndirilir (3, 69). «Muzeylər haqqında» Qanunda qeyd olunur: «…muzey əşyalarının və kolleksiyalarının mühafizəsi – muzey əşyalarının və kolleksiyalarının qorunub saxlanmasını təmin edən maddi fəaliyyəti»dir. [3]

Qeyd etmək lazımdır ki, hər bir muzeyin eksponatlarının qorunması işində ciddi fərdi xüsusiyyətlər də vardır. Tədqiq etdiyimiz bədii təmayüllü Azərbaycan Milli İncəsənət muzeyinin dəzgah rəngkarlığı, yaxud qrafika əsərlərinin nümayiş etdirilməsi üçün xüsusi altlıq və mürəkkəb stend qurğusu quraşdırmaq lazım gəlmir. Lakin başqa kateqoriyaya daxil olan muzeylərdə, misal üçün Tarix muzeyində, bu cür qurğu və tərtibatlara tez-tez rast gəlmək olar. Bu hal həmin muzeydə nümayiş etdirilən eksponatın xarakterindən asılıdır. Eksponatın nümayiş etdirilməsi bəzən xeyli mürəkkəb konstruksiyaya və texniki göstəricilərə malik olan tərtibat tələb edir ki, bunda da məqsəd eksponatın tamaşaçı tərəfindən qavranılmasının keyfiyyətini yüksəltməkdir. Əksər hallarda ekspozisiyanın təşkil edilməsində izahedici mətnlərdən, reklamlardan, bələdçi və broşürlərdən də istifadə edilir ki, bu da həmin məqsədə qulluq edir. Adətən xüsusiyyətlər həm da texniki funksiya daşıyır. Lakin burada bədii-estetik mahiyyətin də böyük rolu vardır. Bu halda bədii-estetik mahiyyət texniki və psixoloji xüsusiyyətlər arasında bir növ körpü rolunu oynayır. Əlavə

---

[3] Muzeylər haqqında qanun. “Mədəni irsin qorunmasına dair” – normativ hüquqi aktlar toplusu” kitabında, s.162.

[4] Muzeylər haqqında qanun. “Mədəni irsin qorunmasına dair” – normativ hüquqi aktlar toplusu” kitabında, s. 162-163.



Muzeydə XVIII əsr Qarabağ qrupuna aid olan xovsuz xalça “Vərni”, XIX əsrə aid olan “Zili”, XIX əsr Quba qrupuna aid olan “Əlixanlı” [6], “Alpan” [7], xovlu xalça “Pirəbədil” [8], “Ərcumanlı”[9] və s. xalçalar divardan asılmaqla nümayiş etdirilir. Müəyyən mənada interyer tərtibatı funksiyasını öz üzərinə götürür. Xalça divardan asılmaqla bilavasitə bədii tərtibat elementinə çevrilir və öz-özünü əks etdirən əlverişli məkan təəssüratı yaradır. Bu həm də onun bədii keyfiyyətlərinin daha dərindən qavranılması üçün vacib olan amillərdən biridir.

Bu xalçalarla yanaşı muzeydə külli miqdarda yüksək keyfiyyətli, həyat və məişətdə geniş istifadə olunan xovsuz xalça, palaz, vərni, şəddə, sumax, zili də nümayiş etdirilir. Muzeyin kolleksiyasında XVIII əsr Bakı qrupuna ad olan “Suraxanı”[10], Şuşa qrupuna aid olan “Rüstəm və Zöhrab”, XIX əsr Qarabağ qrupuna aid olan “Açma-yumma”[11], xovlu xalça “Dərvişlər” XX əsrin əvvəllərinə təsadüf edilən Qarabağ qrupuna aid olan “Dəvə bəzəyi”, “Dəvə çulu”, digər zallarda yerləşən “Namazlıq” , “Ovçuluq”, qeyd etdiklərimizin sübutudur.

Müxtəlif ölkələrin muzeylərində və şəxsi kolleksiyalarında uğurla nümayiş etdirilər xalçaçılıq sahəsinin tanınmış ustaları Lətif Kərimov və Kamil Əliyevin əsərləri də muzeyin qiymətli eksponatları siyahısındadırlar.

Muzeydə qorunub saxlanılan XVIII əsrə aid edilən parça nümunələrini seyr edərək məlum olur ki, bu dövrün parçaları üzərində rast gəlinən bəzəklər əsas etibarilə basma və tikmə üsulu ilə icra edilirdi. Parçanı basma

---

[6] Quba xalça məktəbinə daxil olan xalça kompozisiyasının adıdır, onlar eyni adlı kənddə toxunulur. Əlixanlı kəndinin adı A.Bakixanovun “Gülistani-İrəm” əsərində qeyd olunur.

[7] Quba xalça məktəbinə daxil olan məşhur xalçaçılıq məntəqəsidir.

[8] Quba xalça məktəbinə daxil olan məşhur xalçanın adıdır, eyni adlı kənddə toxunulur.

[9] Şirvan xalça məktəbinə daxil olan xalça kompozisiyasının adıdır, eyni adlı kənddə

[10] Bakı məktəbinə daxil olan kompozisiyanın adıdır. Abşeron yarımadasında yerləşən eyni adlı kəndlə bağlıdır..

[11] Cənubi Azərbaycanın Təbriz və Ərdəbil məktəblərinə daxil olan xalça kompozisiyasıdır. Xalçanın adı onun kompozisiyasında olan elementlə sıx bağlıdır Qarabağda toxunan “Açma-yumma” xalçaları tamamilə fərqlidir.

o qədərinkişaf eşmişdir ki, əhalinin əksəriyyəti misgərliklə məşğul olunurdu. Burada külli miqdarda məişət əşyası və ev avadanlığı (dolça, satıl, aftafa, sərnic, məcməyi, sərpuş və s.) hazırlanırdı. Qab-qacaqların bədii tərtibatında epiqrafik ornamentlərdən məharətlə istifadə edilirdi. Ərəb əlifbasının çətin hərfləri Lahıc ustalarının əlində adi ornamentlərinə çevrilərək, hər hansı bir qabın bəzəyində istifadə edilirdi. XIX əsrdə Lahıcda düzəldilmiş muzeyində saxlanılan incə naxışlı qabda əşyanın hansı ildə, kimin üçün, kim tərəfindən hazırlandığı qeyd olunmuşdur. Bununla yanaşı muzeydə XIX əsrə aid olan "Satıl", "Məcməyi" və s. göstərmək olar. Respublikamızın İncəsənət muzeyində müxtəlif elmi ekspedisiyalar zamanı Lahıcdan alınıb gətirilmiş bir qrup ev avadanlığı saxlanmaqdadır.

Tədqiqat işində muzeydə saxlanılan dulusçuluq və bədii metal nümunələrinin geniş təhlili zamanı bu sənət nümunələrinə bədii qiymət verilir, eksponatların özünəməxsusluğu göstərilir.

Fəslin **ikinci yarımfəslində** muzeydə saxlanılan tekstil məmulatlarının təhlili (xalça, parça, tikmə, geyim və s. nümunələri) tədqiq və təhlil edilir.

Muzeydə Azərbaycanın dekorativ-tətbiqi sənət nümunələri ilk olaraq xalçalarla təmsil olunub. Burada Azərbaycan xalçaçılığında tarixən formalaşmış olan bütün dörd bədii məktəbin: Quba-Şirvan (Abşeron), Gəncə-Qazax, Qarabağ, Təbriz qruplarının gözəl nümunələri – xalçalar, gəbələr, şəddələr, müxtəlif bədii toxuculuq nümunələri saxlanılır. Geniş bədii imkanlara, universal ifadə xüsusiyyətlərinə malik olduqlarından klassik üslubda bəzədilmiş xalçalar ekspozisiya zallarında da tamamilə təbii baxılır, estetik cəhətdən harmonik mikromühit yaradılmasına kömək edirlər.

Müxtəlif taxta altlıqlar, tərtibatlar üzərində yerləşdirilmiş digər dekorativ-tətbiqi sənət əşyaları (misdən və başqa metal materiallardan hazırlanmış sərpuşlar, satıllar, qazanlar, hamam dəstləri və s.) bu harmonikliyi daha da qüvvətləndirir, yaddaqalan interyer ovqatı yaradırlar. Çünki, yüksək bədii zövqə, mobil və beynəlmilli interyer estetikası imkanlarına malik olan Azərbaycan xalçaları istənilən interyerdə gözəl görünür.



edək ki, ekspozisiyanın texniki funksiya şəbəkəsinə həmçinin təbii və süni işıqlandırma sistemi, hərəkət və tərpənməz platforma, ventilyasiya qurğuları, yanğından, tüstülənmədən və müxtəlif zərərli mexaniki təsirlərdən qorunma sistemləri və s. daxildir.

Milli İncəsənət muzeyində digər muzeylərdə olduğu kimi, maddi və mənəvi mədəniyyət abidələrinin ən qiymətə nümunələrinin qorunub saxlanma vəziyyətinə xüsusi diqqət yetirilir. Onlar mütəmadi olaraq elmi inventarlaşmadan keçir və bərpa olunur. Bu əşyaların bərpasına – ən bəsit konservasiya işləri olmaqla, – yalnız respublika Mədəniyyət və Turizm Nazirliyinin icazəsi ilə yol verilir və bu zaman nüfuzlu mütəxəssislər, muzey işçiləri və yüksək ixtisaslı bərpaçılardan təşkil edilmiş komissiyanın rəyi əsas götürülür.

Hazırda Muzeyin ekspozisiyası xronoloji ardıcıllıqla ölkələr üzrə təşkil olunub. Muzeyin fondu altı şöbə üzrə sistemləşdirilib: rəngkarlıq, qrafika, heykəltəraşlıq, parça sənəti, metal məmulatı, çini qablar. Muzeydə xüsusi ədəbiyyatlı kitabxana fəaliyyət göstərir, nümunələr arasında XIX əsrə aid kitablar da var.

Müasir dövrdə Milli incəsənət muzeyi rəhbərliyi qarşında təqdim olunan eksponatların qorunmasının və fövqəladə hadisələrdə mühafizəsinin təminatı problemi durur. Mühafizə sistemi dünya standartlarına cavab verməlidir, çünki o, sənət əsərlərinin qorunmasını tam şəkildə təmin etməlidir.

Bu problemin həllini CASPEL kompaniyası üzərinə götürdü. Bu kompaniya Azərbaycanda informasiya texnologiyaları, telekommunikasiya və inteqrasiya həlləri üzrə lider hesab olduğu üçün bu məsələnin öhdəsindən uğurla çıxdı.

Eksponatla dolu bütün otaqlarda CASPEL kompaniyasının əməkdaşları iki tipli standart qurğu və xüsusi hərəkət qurğusu quraşdırıblar. Muzeydə mərkəzləşdirilmiş siqnalizasiya sistemi də yer alıb: bütün otaqlarda səs xəbərdarlığı və gurultulu rabitə cihazları quraşdırılıb, 20-dən çox otaqda isə CASPEL mütəxəssisləri kodlu qıfıl sistemi qurublar ki, bu da həm seyrçilərin, həm də xidmət personalının daxil olmasını məhdudlaşdırır. Muzeyə giriş və çıxış prosesini kontrolda saxlamaq üçün video nəzarət sistemi düzəldilib. CASPEL-in əməkdaşları tərəfindən Azərbaycan və dünya incəsənət əsərlərinin fövqəladə ekstremal şəraitdə qorunması üçün avadanlığın quraşdırılması üçün işlər aparılmışdır. Əsas elektrik təchizatının

kəsildiyi zaman bütün elektron sistemlərin işləməsi üçün fasiləsiz elektrik təchizatı generatoru quraşdırılmışdır.

Beləliklə, hazırda bütün unikal incəsənət əsərləri etibarlı şəkildə mühafizə olunur. Bu baxımdan muzey Brüsseldə yerləşən Avropanın İqtisadi ticarət, kommersiya və sənaye palatası (European Economic Chamber of Trade, Commerce and Industry EEIG) tərəfindən təyin olunmuş Avropa muzey standartlarına cavab verir. Azərbaycan Milli İncəsənət muzeyi dünya muzeylərinin ümumi konsepsiyasına cavab verdiyi üçün – keyfiyyətli muzey xidmətləri göstərir, peşəkar təcrübəyə və xüsusi konsultasiya xidmətlərini təqdim etməyə malik olduğu üçün Avropanın İqtisadi ticarət, kommersiya və sənaye palatası şurasının yekdil qərarına görə fəxri diplomla təltif olunmuşdur.

Dissertasiyanın **"Azərbaycan Milli İncəsənət muzeyinin Azərbaycan dekorativ-tətbiqi sənət kolleksiyası"** adlanan **II fəslin birinci yarımfəslində** muzeydə saxlanılan dulusçuluq və bədii metal nümunələrinin təhlili aparılır.

Dulusçuluq sənəti əsrlərdən keçərək bizim dövrümüzə qədər gəlib çatmışdır. Öz ənənələrini saxlayaraq yenilikləri də özündə əks etdirməyə bacarmışdı. Muzeydə nümayiş etdirilən şirli saxsı məmulatlarının anqobsuz və anqoblanmış iki növünə təsadüf olunur. Mühafizə olunan dulusçuluq sənəti nümunələri içərisində anqobsuz saxsı məmulatları say etibarilə çoxluq təşkil etsə də, öz bədii xüsusiyyətlərinə görə anqoblanmış saxsı məmulatlarından keyfiyyətcə xeyli aşağı səviyyədədirlər.

Muzey fondlarında təxminən XII–XIX əsrlərə aid şirli dulusçuluq nümunələri qorunub saxlanılır. Məsələn, Bərdə rayonu ərazisindən tapılmış butulka formalı qab XII-XIV əsrlərə aid edilir. Sovet dövründə Azərbaycanda bu sahədə işləyən bir neçə tanınmış usta olmuşdu. Onların arasında O.Şixaliyevın, H.Abdullayevanın, T.Ağababayevın L.Ağamalıyevanın adlarını çəkmək olar. Adı çəkilən rəssamların əsərləri respublika və ümumittifaq sərgilərində nümayiş etdirilib. Milli İncəsənət muzeyinin kolleksiyasında onların maraqlı əsərləri saxlanılır.

Muzeyin zəngin kolleksiyasında qiymətli metaldan (bədii metal) hazırlanmış zərgərlik məmulatları, zinət əşyaları və soyuq silahlar, çini, kağız, şüşə, ağac və daş üzərində oyma ilə işlənmiş əşyalar, bədii tikmə, parça və kişi, qadın, uşaq milli geyimləri, zərif naxışlı bədii metal nümunələri və s. kimi xalq tətbiqi sənət nümunələri nümayiş etdirilir.



Zərgərlik nümunələri əsasən XIX–XX əsrlərin əvvəllərində düzəldilmiş, yüksək zövqlə işlənmiş, nəfis nümunələrlə təmsil olunurlar. Azərbaycan zərgərlik nümunələri zəngin bədii kompozisiya xüsusiyyətlərinə malik olmaqla rəmzi (alleqorik) mahiyyət kəsb edirlər.

Zərgərlik işlərinin saxlanıldığı dekorativ görkəmli taxta stellajlar və ya şkaflar ölçü etibarilə interyerin tərkib hissəsi kimi daha artıq nəzərə çarpır. Azərbaycan dekorativ-tətbiqi sənət nümunələrinin toplandığı sonuncu zalda (binanın cənub fasadında) bir neçə ədəd belə tərtibat nümunəsi vardır. Bu nümunələr özləri bir əşya olmaq etibarilə uzaqdan və ya orta məsafədən baxılmağa hesablanmışdır. Lakin onların içərisindəki zərgərlik işləri kiçik ölçülü olduğuna görə "yaxın baxış" tələb edir. Beləliklə, zalın müxtəlif eksponat-inventar qrupları üç tənasübdə – uzaq, orta və yaxın baxış fokusunda olmaqla müxtəlif məkan xassələrini özündə birləşdirir. Zərgərlik işlərinin saxlanıldığı dekorativ-tətbiqi sənət nümunələri yaxın baxışda öz əhəmiyyətini itirərək zərgərlik nümunələrinin tamaşaçısı tərəfindən münasib şəkildə qavranılması üçün texniki vasitə rolunu ifa edir. Onların texniki funksiyalarına quruluş, ölçü, rəng, material və digər göstəricilərlə yanaşı, süni işıqlandırma sistemi də daxildir. Sonuncunun əsas məqsədi zərgərlik nümunələrinin görünüş effektinin yaxşılaşdırılmasından ibarətdir. Zərgərlik işləri "yaxın baxış" optik kateqoriyasına daxil olduqlarından, zalın ümumi işıqlandırılmasını təmin edən adi, təbii işıqlandırma sistemi kafi nəticə vermir. Böyük və orta ölçülərdə təbii işıqlaqdırma sistemi eksponatların qavranılması üçün optimal şərait yaradır. Kiçik ölçülərdə isə bu optimallıq şərti xarakter daşıyır. Ona görə də kiçik nümunələr (sonuncu zaldakı zərgərlik nümunələri və bəzi eksponatlar) süni işıqlandırma sistemi ilə təchiz olunmuşdur. İncəsənət muzeyində bu quruluş adi elektrik lampalarından ibarətdir (adi dedikdə bu lampaların texniki göstəriciləri nəzərdə tutulur). Süni işıqlandırma sistemi interyerin texniki tərtibatının bir hissəsini təşkil edərək, qeyd olunduğu kimi, kiçik həcmi eksponatların (zərgərlik işlərinin, onların bəzi fraqment və ya detallarının) qavranılması effektini yaxşılaşdırır, onların tamaşaçı tərəfindən nəzərdən keçirilməsinə rahat şərait yaradır.[5]

Muzeydə zərgərlik nümunələri ilə yanaşı misgərlik nümunələri də eksponat şəklində nümayiş etdirilir. XIX əsrdə Lahıcda misgərlik o qədər

---

[5] Eyvazova Y. Muzey ekspozisiyası – Bakı, 2009.

Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Mədəniyyət və muzeyşünaslıq" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Kübra Muxtar qızı Əliyeva**
*sənətşünaslıq üzrə elmlər doktoru*

**Rəsmi opponentlər:** **İsrafil Ramazan oğlu İsrafilov**
*sənətşünaslıq üzrə elmlər doktoru, professor*

**Alla Hacıağa qızı Bayramova**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru*

**Aparıcı təşkilat:** L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi

Dissertasiyanın müdafiəsi 2013-cü il 27 dekabr saat $13^{00}$ –da Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdindəki FD.02.091 - Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1065; Bakı ş, İnşaatçılar prospekti 9

Dissertasiya ilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 27 noyabr 2013-cü il tarixində göndərilmişdir.

**FD.02.091 Dissertasiya Şurasının**
**elmi katibi, pedaqogika üzrə**
**fəlsəfə doktoru, professor** **M.C.Manafova**

"AMEA"-nin mətbəəsində
çap olunmuşdur
tiraj100

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**
**КУЛЬТУРЫ И ИСКУССТВ**

*На правах рукописи*

**НУРЛАНА ГУДРЕДДИН КЫЗЫ БАГИРОВА**

# РОЛЬ АЗЕРБАЙДЖАНСКОГО НАЦИОНАЛЬНОГО МУЗЕЯ ИСКУССТВА В ДЕЛЕ ОХРАНЫ И ПРОПАГАНДЫ КОЛЛЕКЦИИ ДЕКОРАТИВНО-ПРИКЛАДНОГО ИСКУССТВА

6220.01 – «Музееведение.»

**А В Т О Р Е Ф Е Р А Т**

Диссертации представленной на соискание ученой степени доктора философии в области искусствоведения

**БАКУ – 2013**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

*Əlyazma hüququnda*

**NURLANA QÜDRƏDDİN QIZI BAĞIROVA**

# AZƏRBAYCAN MİLLİ İNCƏSƏNƏT MUZEYİNİN DEKORATİV TƏTBİQİ- SƏNƏT KOLLEKSİYASININ QORUNMASI VƏ TƏBLİĞİNDƏ ROLU

6220.01 – "Muzeyşünaslıq"

sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**B A K I – 2013**